# Azərbaycan ifaçıları 45-ci "Martişor" Beynəlxalq Musiqi Festivalında

***Azərbaycan Respublikasının xalq artisti, professor, tarzən Ramiz Quliyev və beynəlxalq müsabiqələr laureatı, dirijor Əyyub Quliyev Moldovanın paytaxtı Kişinyov şəhərində keçirilən 45-ci "Martişor" Beynəlxalq Musiqi Festivalında Azərbaycan mədəniyyətini uğurla təmsil etmişlər.***

Festivala dünyanın 20-yə yaxın ölkəsindən məşhur musiqiçi və kollektivlər dəvət olunmuşdur. Kişinyovun "Respublika Saray"ında ölkənin dövlət və hökumət rəhbərlərinin iştirakı ilə keçirilən festivalın təntənəli açılış mərasimində tarzən Ramiz Quliyev Moldova Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Azərbaycan və Moldova bəstəkarlarının əsərlərini ifa etmişdir.

Böyük marağa səbəb olan çıxışdan sonra Moldovanın mədəniyyət naziri Boris Foksa və tanınmış incəsənət xadimləri - bəstəkar, professor Yevgeni Doqa, Dövlət Filarmoniyasının direktoru Svetlana Bivol, Dövlət Akademik Opera və Balet Teatrının direktoru Valeriya Şeycan, maestro Georgi Rustu Azərbaycan musiqisinə və milli alətimizə heyran olduqlarını bildirmişlər.

Daha sonra Nika Fondu, Beynəlxalq Humanitar və Mədəni Əməkdaşlıq Fondu və Azərbaycanın Moldovadakı səfirliyinin təşkilati dəstəyi ilə keçirilən konsertdə Sergey Lunkeviç adına Moldova Dövlət Filarmoniyasının böyük zalında Filarmonik Orkestr dirijor Əyyub Quliyevin idarəsi ilə çıxış etmişdir. Anşlaqla keçən konsertdə Dövlət Filarmonik Orkestri dahi Azərbaycan bəstəkarları Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirovun əsərləri ilə yanaşı, dünya klassik musiqisindən nümunələri (P.Çaykovski, J.Bize, J.Enesku) ifa etmişdir. Konsertin solisti, tarzən Ramiz Quliyevin ifasında ilk dəfə olaraq, Moldova Filarmonik Orkestrinin müşayiəti ilə Ü.Hacıbəyli, H.Xanməmmədov və H.Rzayevin əsərləri səslənmişdir. Dəfələrlə səhnəyə dəvət olunan tarzən dinləyicilərin istəyini nəzərə alaraq, məşhur rumın bəstəkarı Q.Dinikunun "Mart yallısı" və klassik Azərbaycan muğamlarını ifa etmişdir. Əyyub Quliyevin dirijorluğu ilə tamaşaçılara təqdim olunan J.Eneskunun "Rumın rapsodiyası"nın ifasından sonra dinləyicilər azərbaycanlı dirijoru və musiqiçiləri ayaq üstə alqışlamışlar. Azərbaycanlı musiqiçilərin konserti Dövlət Televiziya və Radiosu ilə canlı yayımlanmışdır. Konsertin sonunda Moldova Dövlət Filarmoniyasının direktoru, professor Svetlana Bivol filarmoniyanın 70 illik yubiley nişanını azərbaycanlı musiqiçilərə təqdim etmişdir. O, musiqiçilərimizi növbəti festivalda çıxış etmək üçün yenidən Moldovaya dəvət etmişdir.